**UOT 1(091)**
**https://doi.org/10.30546/ifs.2026.2.47.1272**

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA MİLLİ OYANIŞ VƏ İDEOLOJİ İNKİŞAF

**Aytək Məmmədova**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
a.z.m-9@mail.ru
https://orcid.org/0000-0002-4915-6263

**Xülasə.** Məqalədə Azərbaycanın XIX əsrin sonlarını və XX əsrin əvvəllərini əhatə edən ictimai-siyasi və elmi-mədəni həyatına nəzər salınır. Azərbaycanın milli mətbuatının banisi Həsən bəy Zərdabinin dərc etdirdiyi “Əkinçi” qəzeti xalqın maariflənməsi işində və milli özünüdərkin yaranmasında xüsusi rolu vardır. “Əkinçi” qəzetinin ənənələrini davam etdirən “Kaspi”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Şərqi-Rus”, “Tərəqqi” və başqa qəzetlər, eləcə də “Molla Nəsrəddin”, “Füyuzat” jurnalları Azərbaycan xalqının elmi-mədəni tərəqqisində böyük əhəmiyyət daşımışdır. Burada milli mətbuatın ideoloji inkişafda böyük rolu olduğu bildirilir. Məqalədə göstərilir ki, bu dövrdə yaşamış Firidun bəy Köçərli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Yusif Vəzir Çəmənzəminli, Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) və başqa şəxsiyyətlər milli oyanışın simaları kimi Azərbaycanın düşüncə tarixində əvəzsiz xidmətlər göstərmişlər.

**Məqsəd:** XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan mətbuatının milli oyanışa və ideoloji inkişafa təsirini göstərmək, böyük mütəfəkkirlərin xidmətlərini araşdırmaq.

**Metodologiya:** sistemli yanaşma, tarixilik metodu

**Elmi yenilik:** XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşayıb-yaratmış mütəfəkkirlərin Azərbaycan mətbuatının tərəqqisindəki təsiri, milli oyanışın və ideologiyanın inkişafındakı fəaliyyətlərindən bəhs edilir.

**Açar sözlər:** Azərbaycan, tarix, ideologiya, mətbuat, mədəniyyət

# NATIONAL AWAKENING AND IDEOLOGICAL DEVELOPMENT IN AZERBAIJAN IT THE LATE 19TH AND EARLY 20TH CENTURY

**Aytek Mammadova**

**Abstract.** The article examines the socio-political, scientific, and cultural development of Azerbaijan during the late 19th and early 20th centuries. The newspaper Akinchi, founded by Hasan bey Zardabi, played a pivotal role in educating the people and fostering national self-awareness. Following the tradition established by Akinchi, newspapers such as Kaspi, Ziyayi-Kavkaziyya, Kashkul, Shargi-Rus, Taraggi, and others, as well as magazines like Molla Nasraddin and Fuyuzat, have played a significant role in the scientific and cultural progress of the Azerbaijani people. The article shows that Firidun bey Kocharli, Ali bey Huseynzade, Ahmet Agaoglu, Abdurrahim bey Hagverdiyev, Muhammad Amin Rasulzadeh, Uzeyir bey Hajibeyli, Jalil Mammadguluzadeh, Yusif Vazir Chamanzaminli, Muhammad Hassan bey Veliyev-Baharly, and other prominent figures of the period made contributions to the development of Azerbaijani intelectual thought as pioneers of the national awakening.

**Purpose:** This study aims to examine the impact of the Azerbaijani press on national awakening and ideological development in the late 19th and early 20th centuries, and to examine the contributions of great thinkers

**Methodology:** systemic approach and historical method.

**Scientific novelty:** The influence of thinkers who lived and worked in the late 19th and early 20th centuries on the progress of the Azerbaijani press, as well as their role in the development of national consciousness and ideology, is discussed

**Keywords:** Azerbaijan, history, ideology, news media, culture

# НАЦИОНАЛЬНОЕ ПРОБУЖДЕНИЕ И ИДЕОЛОГИЧЕСКОЕ РАЗВИТИЕ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВЕКОВ

**Айтек Мамедова**

**Резюме.** В статье представлен обзор общественно-политической и научно-культурной жизни Азербайджана в конце XIX - начале XX века. Газета “Экинчи”, издававшаяся основоположником национальной прессы Азербайджана Гасан беком Зардаби, сыграла особую роль в просвещении народа и формировании национального самосознания. Его традиции продолжили такие издания, как “Каспий”, “Зияйи-Кавказия”, “Кешкюль”, “Шарги-Рус”, “Тарагги”, а также журналы “Молла Насреддин” и “Фиюзат”,внесшие значительный вклад в научно-культурный прогресс азербайджанского народа. В статье подчёркивается важная роль национальной прессы в процессе идейного развития. Отмечается, что выдающие деятели эпохи - Фиридун бек Кочарли, Али бек Гусейнзаде, Ахмед бек Агаоглу, Абдуррагим бек Хагвердиев, Мухаммед Эмин Расулзаде, Узеир бек Гаджибейли, Джалил Мамедкулизаде, Юсиф Вазир Чеменземинли, Мухаммедгасан бек Велиев-Бахарлы и другие - стали символами национального пробуждения и сыграли незаменимую роль в истории азербайджанской общественной мысли.

**Цель:** показать влияние азербайджанской прессы конца XIX – начала XX века на национальное пробуждение и развитие идеологии, а также проанализировать деятельность выдающихся мыслителей этого периода.

**Методология:** системный подход, исторический метод

**Научная новизна:** в работе рассматривается вклад мыслителей указанного периода в становление азербайджанской прессы, а также их роли в процессах национального пробуждения и формирования идеологии.

**Ключевые слова:** Азербайджан, история, идеология, пресса, культура

**Giriş**

XIX əsrin sonlarından başlayan və XX əsrin əvvəllərində davam edən milli oyanış hərəkatı, müstəqil dövlətçiliyin qurulmasının nəzəri əsasları, bununla bağlı olaraq milli ideya və ideologiya, mənəvi dəyərlərlə əlaqədar məsələlər Azərbaycan tarixində parlaq şəkildə öz əksini tapmışdır.

Maarif xadimi, təbiətşünas alim Həsən bəy Zərdabi (Məlikov) (1842-1907) 1875-ci ildə “Əkinçi” qəzetinin əsasını qoymaqla milli mətbuatımızın banisi kimi Azərbaycanın düşüncə tarixində böyük xidmət göstərmiş, şərəfli bir yer tutmuşdur.

XIX əsrin sonunun və XX əsrin əvvəllərinin Azərbaycan tarixinin ən qaranlıq dövrünü təşkil etdiyini bildirən Türkiyənin böyük mütəfəkkiri Hilmi Ziya Ülkən yazmışdır ki, bu dövrdə Həsən bəy Zərdabi, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Şahtaxtlı ilə birlikdə milli oyanış hərəkatında çalışırdı. Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin maddi və mənəvi dəstəyi ilə rus hakimiyyəti qarşısında türk xalqının hüquqlarını müdafiə etmək üçün rusca “Kaspi” qəzeti təsis edilmiş, Əhməd bəy Ağaoğlu, Topçubaşov və Hüseynzadə bu qəzetə məqalələlər yazmağa başlamışdı. Eyni zamanda Məhəmməd ağa Şahtaxtlı tərəfindən Tiflisdə yaradılan türkcə “Şərqi-Rus” qəzeti Bakıya köçürülərək Əhməd Ağaoğlunun yardımı ilə nəşrini davam etdirdi. 1905-ci ildə Rus imperiyası konstitusiyalı monarxiya elan etməyə məcbur oldu. Bu yolla verilən nisbi azadlıqdan faydalanan Azərbaycan ziyalıları türk qəzet və jurnalları yaratmağa, məktəb, dərnək kimi mədəniyyət qurumları yaratmağa çalışmış və bunların bir çoxuna nail olmuşdular. Həsən bəy Zərdabi tərəfindən yaradılan “Əkinçi”dən sonra Cəlal Ünsi və qardaşı tərəfindən yaradılan “Ziyayi-Qafqaziyyə”, “Kəşkül” ilə Məhəmməd ağa Şahtaxtlının “Şərqi Rus” istənilən faydanı verməmiş və uzun müddət yaşaya bilməmişdi (17, s. 408-409).

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın fikir adamlarının, ziyalılarının fəaliyyəti milli oyanış hərəkatının formalaşmasında mühüm rol oynamışdır. Azərbaycan maarifçiliyinin və milli oyanışının simvolu kimi Həsən bəy Zərdabidən başlayan maarifçilik missiyası Səid və Cəlal Ünsizadə qardaşları, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli və başqa şəxsiyyətlər tərəfindən davam etdirilmişdir. Bu dövrdə yaşayıb-yaratmış alimlər, mütəfəkkirlər xalqın maariflənməsi, ictimai fikrin yüksəldilməsi, elmi-mədəni mühitin formalaşması istiqamətində mühüm xidmətlər göstərmişlər. Onların təşəbbüsü ilə yaradılan qəzet və jurnallar Azərbaycanın düşüncə tarixində yeni bir mərhələnin

əsasını qoymuşdur. Bütün bu fəaliyyətlər nəticəsində Azərbaycan xalqı milli kimliyini dərk etməyə başlamış, mədəni, siyasi və ictimai sahələrdə müstəqillik ideyalarına doğru mühüm addımlar atılmışdır.

**Milli oyanış və ideoloji inkişafın mətbuat tarixində rolu**

Maarif və mətbuat fədaisi Həsən bəy Zərdabi milli oyanışın parlaq siması kimi Azərbaycan tarixində önəmli yerə sahibdir. Milli mətbuatın yaranışı, 22 iyul 1875-ci ildə “Əkinçi” qəzetinin dərc edilməsi ilə əlaqədar Həsən bəy Zərdabi bildirmişdir: “Qəzet çap olunur Qafqaz vilayətinin Badkubə şəhərində. Hər kəs elamnamələr və məktubat göndərmək xahiş etsə qəzeti çap etdirənin adına göndərsin. Bu qəzeti almaq xahiş edən kəslər qəzetin yuxarıda zikr olan qiymətini lazımdır qəzeti basdıranın adına göndərsinlər və öz adlarını və sakin olduğu yerlərini yazıb məlum eləsinlər. Bu qəzeti çap edir Badkubə gimnaziyasının müəllimi Həsən Məlikzadə Zərdabi” (3, s. 19).

Həsən bəy Zərdabi ilk nömrədə “Əkinçi” qəzetinin geniş təbliğ edilməsi üçün müsəlmanları anlayan, öndə gedən şəxslərdən xalqın bu qəzeti oxuyanlarının çox olmasına çalışmalarını xahiş etmişdir: “Dünya həmişə dövran edir və insan bu tövr dünyanın gərdişinə görə gərək habelə öz rəftarını da dəyişdirsin, necə ki, məsəldir deyirlər, zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olgilən. Pəs olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olsun. Bizim zəmanənin dəyişilməyi, əlbəttə, hər anlıyan kəsə məlumdur və bu tövr zəmanənin dəyişilməyi bizim ilə deyil, həmçinin biz qadir deyilik ki, zəmanəni dəyişilməkdən saxlayaq. Ol kəslər ki həmişə bizə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə gün-gündən tərəqqi edib irəli gedirlər. Onların belə irəli getməyinə mane olmaq, yəni onların keçən zəmanənin qaydası üzrə saxlamaq məsləhət deyil, ona görə ki, yolu onlar bizsiz də gedəcəkdirlər” (3, s. 20).

“Bu tarixdə Rusiyada çar zülmü güclənir, mətbuat və nəşriyyat işi getdikcə çətinləşirdi. Həmin illərdə Cəlal Ünsi bəy Dağıstanda “Kəşkül” jurnalını, Krımda isə İsmayıl Qaspralı “Tərcüman-ı Hakikat”ı nəşr etdirdilər” faktını təqdim edən Hilmi Ziya Ülkən yazmışdır: Cəlal Ünsi və Səid Ünsi, öncə “Ziyayi-Qafqaziyyə”, daha sonra “Kəşkül”ü çıxardılar. Azərbaycan, Çağatay, Noqay, qərb Türk ləhçələrində məqalələri toplayırdılar. İçində türkcədən başqa, farsca yazılar da vardı. İslam-Şərq dünyasının ortaq ilk qəzeti deyilə bilir (17, s. 213).

Hilmi Ziya Ülkən Cəlal Ünsizadənin nəşriyyat fəaliyyətini davam edə bilməyincə ailəsi ilə birlikdə Türkiyəyə köçdüyünü, Babıalidə və Ankarada rus dili üzrə tərcüməçilik etdiyini, son illərini orada yaşadığını qeyd etmişdir. Cəlal Ünsizadə və ailəsiylə yaxından tanış olduğunu bildirən türkiyəli alim onlarla 1912-1925 illərdə ünsiyyətdə olmuşdur (16, s. 9).

Hilmi Ziya Ülkən 1902-ci ildə Əhməd bəy Ağaoğlunun təklifi ilə Hacı Zeynalabdin rus hökumətindən bir türk qəzeti yaratmaq icazəsini almağa çalışsa da, buna yalnız 1905-ci il inqilabından sonra nail olduğunu bidirmişdir: 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən əsası qoyulan türk qəzetçiliyi yenidən dirçəldi, onun da iştirak etdiyi “Həyat” qəzeti yarandı. Bu təşəbbüslə Azərbaycan oyanış hərəkatı özünün ikinci mərhələsinə qədəm qoydu. Bu dövrün aparıcı simaları Əhməd Ağaoğlu, Əli Hüseynzadə, Əlimərdan Topçubaşov idi.

Azərbaycanın şərqşünas alimi, ictimai xadimi Məhəmməd ağa Şahtaxtlı (1846-1931) tərəfindən Tiflisdə Azərbaycan dilində 1903–1905 illərdə dərc edilən “Şərqi-Rus” qəzeti mətbuat tarixində özünəməxsus yer tutur. Professor Nazim Axundov “Şərqi-Rus” qəzetinin ədəbiyyat və mətbuat aləmində müəyyən canlanmaya, məfkurə mübarizəsinin qızğınlaşmasına səbəb olduğunu, az zaman içərisində demokratik ruhlu ziyalıları, şair və ədibləri öz ətrafında topladığını qeyd etmişdir (1, s. 15).

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əziz Mirəhmədov Məhəmməd ağa Şahtaxtlının uzun müddət Peterburq, Tiflis, Paris, Leypsiq şəhərlərində elmi işlə yanaşı, jurnalist kimi də fəaliyyət göstərdiyini yazmışdır: “1870–1880 illərdən başlayaraq Rusiya və Qərbi Avropa mətbuatında Şahtaxtlının tez-tez Şərqə, onun tarixinə, müasir həyatına, beynəlxalq əlaqələrinə, dil, ədəbiyyat, din və fəlsəfəsinə dair əsərləri nəşr edilirdi. Ən çox çap olunduğu qəzetlər isə “Kəşkül”, “Kavkaz”, “Kaspi”, “Novoye obozreniye” idi. (9, s. 131-132).

Bakıda 1881–1919 illərdə rus dilində çap edilən “Kaspi” qəzetinin Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində mühüm yeri vardır. “Kaspi” qəzetində Məhəmməd ağa Şahtaxtlı, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Firudin bəy Köçərli, Cəlil Məmmədquluzadə və başqa ziyalılar çıxış etmişlər.

Yusif bəy Akçura Qafqaz Türklüyü məntəqəsində milli türk hərəkatının Bakıda mərkəzləşdiyini, Bakıda olduqca zəngin neftçilərin yatağı olduğunu bildirmişdir: “Bakıda milli türk hərəkatının təməlləri və qüvvətli bir şəkil alması Zeynalabdin Tağıyev, Murtuza Muxtarov kimi neft xanlarının zühurundan sonra görünür. Doğurdan da, Bakının neftçilik ilə şöhrət və əhəmiyyət qazanmasından daha əvvəl Fətəli

Axundov Tiflisdə komediyalarını yazmış; Həsən bəy Məlikov “Əkinçi” qəzetini, Ünsüzadələr də “Kəşkül” və “Ziyayi-Qafqaziyyə”ni çıxarmışlar, lakin Qafqazın müntəzəm və davamlı milli hərəkatı Bakı müsəlman-türk burjuaziyasının yaranışından sonradır”. Yusif bəy Akçura Bakıda milyonçu Tağıyevin rusca nəşr etdirdiyi “Kaspi” və ilk türkcə qəzetin yenə onun çap etdirdiyi “Həyat” olması faktını yada salaraq bu dövrdə Azərbaycanın mətbuat tarixi ilə bağlı yazmışdır ki, “Kaspi”nin baş redaktoru Əlimərdan bəy Topçubaşov, ən çox, ən yaxşı və ən parlaq yazan mühərriri də Əhməd bəy Ağayev idi. “Kaspi” və “Həyat”dan sonra “İrşad”, “Yeni İrşad”, “Təzə Həyat”, “Füyuzat”, “Yeni Füyuzat”, rusca “Proqress”, “Təkamül”, “Nicat” kimi bir çox qəzetlərin hamısı Bakıda və əsasən hamısı Tağıyev, Muxtarov, Aşurbəyli kimi sərmayədarların naşirliyi ilə çıxmışdır (14, s. 59).

XX əsr Azərbaycan mədəniyyəti və mətbuatı tarixində “Molla Nəsrəddin” jurnalının əvəzsiz yeri vardır. Belə ki, Azərbaycanın ictimai xadimi, yazıçısı, jurnalisti Cəlil Məmmədquluzadə (1869–1932) ““Molla Nəsrəddin”i təbiət özü yaratdı, zəmanə özü yaratdı” yazmışdır.

“Molla Nəsrəddin” jurnalının açıq və sadə dildə yazması Əli bəy Hüseynzadə tərəfindən də yüksək dəyərləndirilmişdir. Cəlil Məmmədquluzadə bununla əlaqədar göstərmişdir ki, Əli bəy Bakıdan axırıncı dəfə Türkiyəyə köçüb gedən vaxt Tiflisə gəldi, idarəmizə təşrif gətirdi. Söhbət dildən düşdü və möhtərəm ədibimiz mənə belə dedi: “Yaxşı yazırsınız”. Mən Əli bəyə ərz etdim ki, onun tək bir şəxsdən eşidilən bir sözünü mən havayı danışılan sözlərin cərgəsinə qoya bilmərəm. Çünki Əli bəy Hüseynzadə kimi bir yazı ustadı mən tək bir cavan yazıçıya yazı barəsində dediyi sözü mən ciddi bir söz hesab edəm gərək” (6, IV, s. 76).

“Molla Nəsrəddin” jurnalının 1906-cı ildə Tiflisdə təşkil olunmasının səbəbini Cəlil Məmmədquluzadə belə izah edirdi: “Tiflis, Qafqazın mərkəzi şəhəri və Qafqaz hökumətinin paytaxtıdır. Habelə bu şəhər Qafqaz türklərinin mərkəzi hesab oluna bilər. Həqiqətdə də belədir. Tiflisdən Naxçıvana və Ordubada da əl yetirmək olur; Qafqaz və Bakı, Batum şəhərinin də arasındadır. Buradan Culfaya və oradan Araz nəhrini keçib bir günə İran Azərbaycanının mərkəzi və paytaxtı olan Təbrizə gedib çatırsan. Bakıdan Xəzər dəryasını bir gündə ötüb Türküstanın Aşqabad və Mərv və qeyri yerlərinə xəbər yetirmək mümkündür. Dağıstan da bu yavıqdadır. Tiflisdən Bakı təriqilə on iki saatlıq dərya səfəri bizi İranın Gilan məmləkətinə yetirir” (6, IV, s. 73).

Bu ölkələrdə türklərin yaşadığını və dillərinin də bizim danışdığımız türkcə olduğunu bildirən Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalının bu xüsusiyyətinə görə “Kürü və Arazı keçdi, bəlkə Xəzər və Qara dəryaları da vurub Türkiyəyə, Türküstana, Gilana keçdi və uça-uça Qafqaz dağlarını aşıb, Qafqaza, Krıma və sair türk ölkələrinə” keçdiyini qeyd etmişdir (6, IV, s. 73).

Azərbaycan mətbuat tarixində “Füyuzat” dərgisinin də mühüm əhəmiyyəti vardır. Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadənin nəşr etdirdiyi “Füyuzat” dərgisi haqqında yazmışdır ki, “Əli Turan 1906-cı ildə Tiflisdə “Füyuzat” adlı bir dərgi çıxararaq onun da baş redaktorluğunu etdi. Orada Əhməd Ağaoğlu ilə birlikdə çalışırdı. “Füyuzat”da çap etdirdiyi yazıların mövzuları da tamamilə Türkçülüyə aiddir”.

Bu dövrdə nəşr edilən “Yeni Füyuzat” jurnalında Azərbaycandakı ictimai, elmi-mədəni hadisələrlə bərabər, başqa ölkələrdə baş verən hadisələr də öz əksini tapmışdır. ““Yeni Füyuzat” jurnalı (1910-1911-ci illər)” kitabındakı “Ön söz”də əməkdar elm xadimi Hüseyn Həşimli Əli bəy Hüseynzadənin redaktorluğu ilə 1 noyabr 1907-ci ildə çap edilən 32-ci sayından sonra nəşri dayandırılan “Füyuzat” jurnalının XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikrinin inkişafında mühüm xidmətləri, özünəməxsus mövqeyi olduğunu bildirərək “Yeni Füyuzat” jurnalını onun ənənələrini, amallarını yaşadan mətbuat orqanları sırasında olduğunu yazmışdır. Hüseyn Həşimli göstərir ki, “Yeni Füyuzat” jurnalı Azərbaycanın bir sıra bölgələri ilə yanaşı, Rusiya imperiyasının Moskva, Sankt-Peterburq, Həştərxan, Rostov, Batum, Aşqabad, Daşkənd, Buxara, Xivə və s. yerlərində, Tehran, Rəşt, Ənzəli, London kimi şəhərlərdə də oxunmuş, yayılmışdır” (12, s. 4-5).

Beləliklə, Həsən bəy Zərdabi “Əkinçi” qəzetini çap etdirməklə 1875-ci ildə milli mətbuatımızın əsasını qoymuşdur. “Əkinçi” qəzetinin ənənələrini davam etdirən “Kaspi”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Şərqi-Rus”, “Tərəqqi” və başqa qəzetlər, eləcə də “Molla Nəsrəddin”, “Füyuzat”, “Yeni Füyuzat” jurnalları bütün türk xalqlarının düşüncə və mədəniyyət tarixində mühüm yer tutaraq, Azərbaycan xalqının elmi-mədəni tərəqqisində böyük əhəmiyyət daşımışdır.

**Milli düşüncə tarixinin formalaşmasında xidmətləri ilə seçilən bəzi mütəfəkkirlər haqqında**

XIX–XX əsrlərdə yaşamış Firidun bəy Köçərli, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir

Çəmənzəminli, Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) və başqa şəxsiyyətlər milli oyanışın simaları kimi Azərbaycanın düşüncə tarixində əvəzsiz xidmətlər göstərmiş, fəaliyyətləri ilə tarixdə özünəməxsus yer tutmuşlar.

Tanınmış ədəbiyyatşünas alim, maarifpərvər şəxsiyyət Firidun bəy Köçərli (1863-1920) Şuşada anadan olmuşdur. Şuşada ilk təhsilini almış, Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirmiş, dövrünün elmi biliklərinə dərindən yiyələnmişdir. Firidun bəy Köçərli İrəvan gimnaziyasında müəllim işləmiş, bir müddət sonra Qori Müəllimlər Seminariyasına müəllim təyin olunmuşdur. Qoridə yaşadığı zaman Firidun bəyin həyat yoldaşı Badisəba xanım Tiflisdə Həmidə xanım Cavanşirin təşkilatçılığı ilə yaradılan müsəlman qadınlarının cəmiyyətində iştirak etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci il noyabr ayında dövlətin vəsaiti hesabına Qori Seminariyasının Azərbaycan bölməsi Qazax şəhərinə köçürülmüşdür. Firidun bəy Köçərlinin Qazax Müəllimlər Seminariyasının fəaliyyətində əvəzsiz xidməti vardır.

Firidun bəy Köçərli “Azərbaycan ədəbiyyatı” kimi yüksək elmi dəyəri ilə seçilən əsərin müəllifidir. Ədəbiyyatşünas alim Azərbaycan türklərinin özünəməxsus ədəbiyyatı olduğunu bildirərkən həmin türklərin Zaqafqaziyanın şərq və cənubunda məskunlaşan Şəki, Şirvan, Səlyan, Bakı, Gəncə, Qazax, Qarabağ, İrəvan, Naxçıvan əhalisindən və İran dövlətinin şimali-şərqində güzəran edən qövmlər və tayfalarından ibarət hesab etmişdir. Firidun bəy Köçərli ölkəmizdə bölgələrin müxtəlif dialektlərdə danışsalar da, onların hamısının danışdığı dilin Azərbaycan ədəbi dili olduğunu yazmışdır: “Azərbaycan türklərinin danışdığı dilin şivəsi çox olsa da, binası və kökü birdir” (4, I, s. 51).

Firidun bəy Köçərli bu sanballı əsərində Məhəmməd Füzuli, Əlişir Nəvai, Əbülüla Gəncəvi, Nizami Gəncəvi, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Əbülfət xan Tuti, Abbasqulu ağa Bakıxanov, Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani və Azərbaycan ədəbiyyatı tarixində əzəmətli yer tutan digər şəxsiyyətlər haqqında dəyərli məlumatlar əks etdirmişdir.

Dahi mütəfəkkir Əli bəy Hüseynzadə (1864-1940) Azərbaycanın və Türkiyənin düşüncə tarixində özünəməxsus mühüm yer tutan şəxsiyyətlərdəndir. Türkiyəli yazar və ictimai xadim Əli Canip Yöntem Ziya Gökalpın iki şəxsin – Abdullah Cevdətin (1869-1932) və Əli bəy Hüseynzadənin təsiri ilə məhz türkçülüyü qəbul etdiyini bildirmişdir. Əli Canip Yöntem Əli bəyin çox təvazökar insan olduğunu, layiq olduğu dərəcədə tanınmadığını qeyd etmişdir. Əli bəy türkçülük idealının ən əski və ən qüdrətli mənsublarından, ensiklopedik biliyə malik, bir zamanlar bu məmləkətdə əski yunan və latın dillərini mükəmməl bilən çox az sayda olan alimlərdən biri idi. Əli bəy həm alim, həm şair, həm də rəssam kimi tanınmışdı.

Azərbaycan mütəfəkkirinin türkçülüyə dair baxışlarının, xüsusilə “Türkləşmək, İslamlaşmaq, Müasirləşmək” fikri ilə “Turan” ideyasının Ziya Gökalpa təsiri ilə əlaqədar məsələlər Hilmi Ziya Ülkənin yaradıcılığında parlaq şəkildə öz əksini tapmışdır: 1905-ci ildə Tiflisdə Əli bəy Hüseynzadə tərəfindən irəli sürülən Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq fikri 1911-ci ildə hərarətli tərəfdarlar tapdı. Ziya Gökalp “Türkləşmək, İslamlaşmaq, Müasirləşmək” adlı məqalələrini və 1918-ci ildə bu məqalələrdən ibarət kitabını çıxardı. Gökalp, Əli bəy Hüseynzadənin dəyərini anlamışdı və onu “Yalavaç” deyə adlandırmışdı. “Yalavaç” sözü isə peyğəmbər, gələcəyi xəbər verən, müjdəçi və s. kimi mənalar daşıyır.

Ziya Gökalpın “Vətən nə Türkiyədir türklər üçün, nə Türkistan; Vətən böyük və əbədi bir ölkədir – Turan!” beytindən bəhs edərkən Əli Canip Yöntem Əli bəy Hüseynzadənin Ziya Gökalpa təsirini yada salaraq bildirmişdir ki, bu mənzumədəki ruhu Ziya Gökalp özünə “Turan” soyadı verən Əli bəy Hüseynzadədən almışdır (18, s. 259).

Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadəni Ziya Gökalp və Yusif Akçura ilə müqayisə edərək yazmışdır: “Nə Gökalp qədər məhsuldar və hadisələrin axışına fikirlərini uydurmuş, nə Akçura kimi iynəli zəkalıydı. Çəkingən mizacı və təbiiliyinə görə, kütlə üzərində deyil, mütəfəkkirlər üzərində təsirliydi”.

Türk dünyasında Əli bəy Hüseynzadənin “Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq” ideyası Şərq və Qərb dəyərlərinin mükəmməl sintezini təqdim edən düstur kimi tarixi aktuallığını və əbədiliyini təmin etmişdir.

Dahi şəxsiyyət Vətəninə bağlı idi. Sovet hakimiyyəti qurulduqdan sonra 1926-cı ildə Əli bəy Hüseynzadə ilk dəfə olaraq Azərbaycana gəlmişdi. Mütəfəkkirin Vətənində keçirdiyi bir gündə yaşadığı hisslərin şahidi olan Azərbaycanın ilk qadın kinorejissoru, Əliqulu Qəmküsarın qızı Qəmər Salamzadənin yazdığı bir fakt bu mənada mühüm əhəmiyyət kəsb edir. Qəmər xanım qurultay nümayəndələrinin

kiçik bir qrupunun iştirak etdiyi qonaqlıq haqqında belə yazırdı: “Azərbaycan sovetləşəndən sonra birinci dəfə idi, Əli bəy Hüseynzadə Bakıya gəlmişdi. Türkiyədə təhsil almış, milliyyətcə özbək, yeni əlifba komitəsinin üzvlərindən Xalid əfəndi Xocayev Türkiyədən gələn qonaqları evinə dəvət etmişdi. Həmin qonaqlıqda Əli bəy Hüseynzadə, Fuad Köprülü, Mirzə Cəlil Məmmədquluzadə, Rzaqulu Nəcəfzadə (Qəmər Salamzadənin əmisi), Hüseyn Cavid, Xalid əfəndinin qonşusu Türkiyədə təhsil almış bakılı doktor Orxanbəyli (Məmmədhacı Orxanbəyli (Əliyev) repressiyanın qurbanı olmuş, 1938-ci ildə yanvarın 13-dən 14-nə keçən gecə güllələnmişdir) də vardı.

Türk dünyasının böyük şəxsiyyəti Əhməd bəy Ağaoğlu (1869-1939) həm Azərbaycanın, həm də Türkiyənin ictimai-siyasi və elmi-mədəni həyatında mühüm xidmət göstərmişdir. Dahi bəstəkar Üzeyir bəy Hacıbəyov Əhməd bəy Ağaoğlunun Azərbaycan tarixindəki fəaliyyətini yüksək qiymətləndirmişdir. Yazıçı, jurnalist, ictimai xadim Cəlil Məmmədquluzadə onu və Əli bəy Hüseynzadəni “Bakının birinci jurnalistlərindən” olduqlarını bildirmişdir.

Azərbaycan mütəfəkkiri 1909-cu ildən Türkiyədə yaşasa da, doğulub boya-başa çatdığı Şuşanı unutmamışdı. O, vətəninə, xalqına, ailəsinə bağlı olmuşdur. Bunu onun fəaliyyəti parlaq şəkildə əks etdirir. Əhməd bəy Ağaoğlu 1892-ci ildə Londonda iştirak etdiyi Şərqşünaslar Konqresi ilə bağlı təəssüratlarında Hayd Parkı gəzərkən özünü Şuşada, Topxanada hiss etdiyini bildirmişdir.

Səməd bəy Ağaoğlu atasının dostlarından biri kimi təqdim etdiyi Əli bəy Hüseynzadə haqqında belə yazırdı: “bəyaz saqqallı, çəhrayı üzlü, gözəl gözlü, şair, rəssam, musiqişünas, filosof, qəzetçi, münəccim, professor, doktor Qafqazlı”. Görkəmli yazıçı “bu iki insan, atamla o necə anlaşdılar?” sualını verdikdən sonra bildirmişdir ki, atam əsəbi, sərt, bir az tələskən idi, o biri yumşaq, sakit, ağırdı. Bu yaradılış fərqinə rəğmən bərabər mücadilə qəzetləri çıxardılar, bərabər inqilab hərəkətlərinə girdilər, gizli cəmiyyətlər qurdular (13, s. 82-83).

“Leyli və Məcnun” operasının ilk dirijoru, Azərbaycanın tanınmış yazıçısı və dramaturqu, ictimai xadim, pedaqoq Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) öz yaradıcılığı və fəaliyyəti ilə Azərbaycan mədəniyyəti tarixində mühüm xidmətlər göstərmişdir.

Əbdürrəhim bəy Haqverdiyev 1906-cı ildə birinci Dövlət dumasına Gəncə quberniyası tərəfindən deputat seçilmişdir. 1913-cü ildə Ağdama köçmüş, 1916-cı ilədək orada qalmış, həmin ilin axırında Tiflisə getmiş, Şəhərlər İttifaqının Qafqaz şöbəsində xidmətə başlamış və burada şöbə xəbərlərinin müdiri vəzifəsini icra etmişdir. Fevral inqilabından sonra Borçalı qəzasına komissar seçilmiş, Şuləver qəsəbəsində bir il üç ay işləmişdir. Buradan Tiflisə getmiş, Gürcüstan türklərinin Milli Şurası və Tiflis azərbaycanlıları tərəfindən Gürcüstan parlamentinə göndərilən dörd nəfər deputatdan biri olmuşdur.

1920-ci ildə Azərbaycanda maarif komissarlığında çalışmış, sonra dövlət teatrlarına komissar təyin edilmiş, axırda incəsənət şöbəsi müdirliyinə keçirilmişdir. 1921-ci ildə incəsənət şöbəsindəki dəyişikliklərə görə həmin ilin noyabr ayından Azərbaycan Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin edilmiş, on il həmin vəzifədə işlədikdən sonra Tibb institutunda qeyri-azərbaycanlılara Azərbaycan dili fənnini tədris etmişdir. Əbdürrəhim bəy Haqverdiyev “Molla Nəsrəddin”, “Zənbur”, “Həyat”, “Tazə həyat”, “İrşad”, “Yeni irşad”, “Tərəqqi”, “Açıq söz” kimi jurnal və qəzetlərdə çalışmışdır. 1907-ci ildən 1927-ci ilədək “Molla Nəsrəddin” məcmuəsində “Cəhənnəm məktubları”, “Marallarım”, “Mozalan bəyin səyahətnaməsi” felyetonlarını yazmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə (1884-1955) milli düşüncə tariximizin böyük şəxsiyyətlərindəndir. Məhəmməd Əmin Rəsulzadəni “Azərbaycan Türklüyünü qurtarmağa çalışanlardan” biri kimi təqdim edən Hilmi Ziya Ülkən onunla Əli bəy Hüseynzadə vasitəsilə tanış olduğunu bildirmişdir. Hilmi Ziya Ülkən yazırdı: “Rəsulzadə İstanbula gəlmişdi, Hüseynzadə məni onunla tanış edərək, “ikiniz də “Siyavuş”u yazırsınız. Biriniz siyasi, digəriniz milli-insani qayə ilə. Tanış olun” demişdi. Rəsulzadənin həmin ildə (1921) “Əsrimizin Siyavuşu” adlı bu əsəri Türkiyədə çıxdı. Bu əsərdə Azərbaycanın siyasi taleyi milliyyətçilik ilə kommunizmin arasında əzilmiş olaraq göstərilir və bu Türk ölkəsi Siyavuşun dramına bənzədilirdi. Ondan olduqca az sonra kommunist idarəsinin Azərbaycanda Türk idarəsini yıxması ilə Yusif Vəzir Çəmənzəminli və Məhəmməd Əmin Rəsulzadə Parisə getdilər və orada gücləri yetdiyi qədər “Promethee” (Prometey) adlı fransızca bir dərgi çıxararaq mübarizələrini müdafiə etməkdə davam etdilər” (16, s. 10).

Məhəmməd Əmin Rəsulzadə 28 may 1953-cü ildə Azərbaycana xitabında demişdir: “100 il sürən Çar əsarətindən sonra bundan 35 il əvvəl Azərbaycan Milli Şurası, Azərbaycan Cümhuriyyətinin İstiqlalını bütün dünyaya elan etdi. O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan

xalqı, bu tarixdən etibarən millət olaraq bir dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudluğu ilə meydana atılmışdır. Mədəni bütün bir mirasa malik olan vətənimiz siyasət sahəsində çox böyük və dəyərli həmlələr göstərmişdir” (15, s. 14).

Lakin, məlum olduğu kimi, böyük dövlətlərin gizli “oyunları” sayəsində Azərbaycan öz müstəqilliyini itirir, 28 aprel 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulur. Məhəmməd Əmin Rəsulzadə bunlara rəğmən inamla deyirdi: “...istiqlaliyyət əziz vətənimizdə 1918-ci ilin 28 mayı kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etməyin!” (15, s. 15).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” (16 may 2017-ci il) Sərəncamı böyük tarixi, elmi və mədəni əhəmiyyət daşıyır. Sərəncamda bildirilir ki, 1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla, onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi.

Bu tarixi dövrdə fəaliyyət göstərən Üzeyir bəy Hacıbəylinin (1885-1948) Şərq mədəniyyəti tarixində misilsiz xidməti vardır. Üzeyir bəy 22 yaşı olarkən, yəni 1907-ci ildə “Leyli və Məcnun” operası üzərində işləyir və onu tamamladıqdan sonra, 1908-ci ilin 12 yanvar tarixində opera ilk dəfə tamaşaya qoyulur. Buna görə də dahi bəstəkar Şərqdə opera sənətinin banisi sayılır.

“Leyli və Məcnun” operasından sonra Üzeyir bəy Hacıbəylinin fəaliyyəti daha da genişlənir. O, “Şeyx Sənan”, “Rüstəm və Söhrab”, “Şah Abbas və Xurşidbanu”, “Əsli və Kərəm”, “Harun və Leyla” operalarını yazır və səhnələşdirir. 1910-cu ildə “Ər və arvad”, 1911-ci ildə “O olmasın, bu olsun”, 1913-cü ildə “Arşın mal alan” komediyalarını qələmə almışdı. Bəstəkar Azərbaycanın dahi şairi Nizami Gəncəvinin qəzəllərinə “Sənsiz” və “Sevgili canan” romanslarını bəstələmişdir. Üzeyir bəy Hacıbəyli Azərbaycan mahnılarının etnoqrafik, tarixi, psixoloji və s. cəhətlərdən əhəmiyyətini vurğulayaraq, onların elmi diskurs və müzakirələr üçün zəmin təşkil edə biləcəyini bildirmişdir. Azərbaycan musiqi mədəniyyətinin tərəqqisi naminə çalışarkən Üzeyir bəy milli musiqi alətlərimizi hücumlardan müdafiə etməklə, mənəviyyat tariximizə adını əbədi həkk etdirmişdir.

Böyük Azərbaycan yazıçısı, ictimai xadim Yusif Vəzir Çəmənzəminli (1887-1943) yaradıcılığı ilə Azərbaycanın düşüncə tarixində özünəməxsus mövqeyə sahibdir. Mütəfəkkirin yaradıcılığında tarixi, elmi, fəlsəfi məzmunlu əsərlərlə yanaşı, məişət, ailə daxili münasibətlər və s. mövzuda əsərlər vardır.

Yusif Vəzir Çəmənzəminli Azərbaycanın Şərq ilə Qərb arasında körpü təşkil edən bir ölkə olması baxımından üstünlüyünü bildirmişdir: “Qafqasiyada mütəşəkkil dövlətlərin iqtisadca ən qüvvətlisi, şübhəsiz ki, Azərbaycandır. Paytaxtımız Bakının neft mədənləri aləmşümuldur və bundan başqa, ipək, pambıq və yun kimi məhsullarımız da az deyil. Bakı dənizinin balıq və kürüsü böyük bir sərvət təşkil edir. Qarabağın (Zəngəzur) mis mədənləri isə parlaq bir istiqbala malikdirlər. Azərbaycanın coğrafi mövqeyi iqtisadi cəhətlərə daha da həyat bəxş edir: Asiya ilə Avropa arasındakı tüccari yollardan biri də Azərbaycandan keçir” (2, s. 40).

Müstəqillik uğrunda düşüncə sahiblərinin gərgin çalışmaları bəhrəsini verir, arzular gerçəkləşir – 28 may 1918-ci ildə Azərbaycanın müstəilliyi elan edilir, Azərbaycan Xalq Cümhuriyyəti yaranır. Bu isə müsəlman Şərqində ilk parlamentli respublika idi. Ölkəsinin müstəqilliyi uğrunda çalışan, elmi-mədəni və ictimai-siyasi həyatında aktiv şəkildə iştirak edən Yusif Vəzir 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin zamanında Türkiyədə səfir işləmişdir. Əhməd bəy Ağaoğlu bu dövrdə Maltada sürgündə olarkən ailəsinə göndərdiyi məktublardan birində Sitarə xanımdan Türkiyədə səfir işləyən Yusif Vəzir Çəmənzəminlini soruşmuş, onunla maraqlanmışdır (13, s. 166). Səfir işlədiyi dövrdə alimin “Azərbaycan Türk ədəbiyyatı tarixi”ni İstanbuldakı kitabxanalara gedərək yazdığını qeyd edən Hilmi Ziya Ülkən Əli bəy Hüseynzadənin Yusif Vəzir Çəmənzəminlinin “Azərbaycan Türk ədəbiyyatı tarixi” kitabının çapına yardım etdiyini göstərmişdir (17, s. 269).

Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında “Qızlar bulağı”, “Studentlər”, “Qan içində” (roman “İki od arasında” da adlanır) əsərləri xüsusi yerə malikdir. “Studentlər” və “Qızlar bulağı” əsərlərində mütəfəkkir fəlsəfi və ictimai fikirlərini ifadə etmişdir. Mütəfəkkirin qələmə aldığı əsərlər onilliklər keçsə də, elmi və bədii dəyərini saxlayır. Azərbaycanın elm və mədəniyyəti tarixində dövlət xadimi, ensiklopedik alim Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) (1896-1937) misilsiz bir fəaliyyət göstərmişdir. Fiziki-coğrafi, etnoqrafik və iqtisadi bölmələrdən ibarət “Azərbaycan” kitabı ensiklopedik alimə böyük şöhrət qazandırmışdır.

Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) Kiyevdə ali təhsilini başa vurduqdan sonra Azərbaycana qayıtmış, gənc iqtisadçı kadr kimi, Xalq Cümhuriyyətinin quruculuğunda yaxından iştirak etmişdir.

Alim Azərbaycan Xalq Cümhuriyyətində iqtisadçı kadr kimi ticarət sahəsində çalışmış, 1919-cu ildə Azərbaycan Dövlət Bankının müdiri olmuşdur. Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) sovet dövründə Dövlət Plan Komitəsində işləmişdir. N.Nərimanov adına Bakı Sənaye Texnikumunda, Bakı Dövlət Universitetində dərs demiş, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin – Azərbaycan Milli Elmlər Akademiyasının təməlinin üzvü seçilmişdir (8, s. 14-15).

Mütəfəkkirin 24 yaşında qələmə aldığı “Azərbaycan” adlı kitabı fiziki-coğrafi, etnoqrafik və iqtisadi bölmələrdən ibarətdir. Zakir Məmmədov əsərdə dini-fəlsəfi və sosial-siyasi məsələlərin də bu və ya digər dərəcədə öz əksini tapdığını qeyd etmiş, Məhəmmədhəsən Vəlilinin (Baharlı) “Azərbaycan” kitabına görə coğrafiyaçı, tarixçi, etnoqraf, toponimist və ələlxüsus iqtisadçı alim kimi misilsiz şöhrət qazandığını yazmışdır (7, s. 4). Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) Azərbaycan ərazisinin topoqrafik quruluşunu yaratmış, xəritəsinin təsvirini vermişdir. Azərbaycanşünas alim Kür ilə Araz çaylarının birləşdiyi ərazilər barədə yazırdı: “Dünyada elə bir bucaq bulunmaz ki, bu qədər məhsuldar bir torpağa kənd təsərrüfatı məhsullarından (pambıq, şəkər çuğunduru, düyü, üzüm, meyvəcat və sair) ən qiymətlilərinin inkişafı üçün bu qədər vəsaitə malik ola bilsin və eyni zamanda külli-əhalini sakin etdirmək üçün bu qədər əlverişli olsun” (11, s. 83). Məlumdur ki, Rusiya imperiyasının və sonra SSRİ tərkibində olduğuna görə Azərbaycana qarşı müstəmləkə siyasəti hökm sürmüşdür. Lakin buna baxmayaraq həmin dövrdə yaşayıb-yaratmış düşüncə sahibləri milli mənəvi dəyərləri qorumuş, mədəniyyətin inkişafında böyük xidmətlər göstərmişlər.

Bu baxımdan Firidun bəy Köçərli, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəylinin, Yusif Vəzir Çəmənzəminlinin, Məhəmmədhəsən bəy Vəliyevin (Baharlı) və başqalarının fəaliyyətləri, yaradıcılıq irsləri orijinallığı, elmi və bədii dəyəri ilə hər zaman aktualdır. Onlar düşüncə tariximizin təşəkkülünə töhfələr vermiş görkəmli mütəfəkkirlərdir.

**Nəticə**

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda xalqın milli oyanışı, milli kimliyini dərk etməsi hərəkatı başlamış, müstəmləkə rejimindən xilas olub dövlətçilik ideyasının formalaşması istiqamətində meyillər özünü göstərməyə başlamışdı. “Əkinçi” qəzetinin xalqın maariflənməsi işində və milli özünüdərkin yaranmasında xüsusi rolu olmuşdur. Bu dövrdə fəaliyyət göstərən düşüncə sahibləri dini fanatizmə qarşı mübarizə aparır, elmin və mədəniyyətin inkişafına çalışırdılar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşayıb-yaratmış ziyalılar, alimlər xalqın tərəqqisinə mane olanlara, xalqı parçalamağa gətirib cıxaran yerliçiliyə qarşı çıxırdılar. Bu baxımdan “Zənbur” jurnalının yazarları Əhməd bəy Ağaoğluya hücum etdikləri zaman onu müdafiə edən Üzeyir bəy Hacıbəylini yerliçilikdə ittiham edərkən, Cəlil Məmmədquluzadə yerliçiliyə qarşı çıxmış, “Molla Nəsrəddin” jurnalında “Tərəkəmə” felyetonunda bunu göstərmişdir.

Ölkənin müstəqilliyi və inkişafı, xalqın tərəqqisi naminə fəaliyyət göstərən düşüncə sahibləri böyük amallar uğrunda çalışmış, mübariz şəxsiyyətlər kimi tarixdə özünəməxsus iz qoymuşlar.

1875-ci ildə milli mətbuatın əsasının qoyulması, sonrakı dövrlərdə çoxsaylı mətbuat orqanlarının yaranması və burada müxtəlif nəşrlərin fəaliyyəti xalqın maarifləndirilməsi, siyasi düşüncənin və ideologiyanın inkişafında mühüm rol oynamışdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Axundov Nazim. “Molla Nəsrəddin” jurnalının nəşri tarixi. Bakı, 1959
2. Çəmənzəminli Y. Vr. Tarixi, cografi və iqtisadi Azərbaycan. Bakı, BU nəşr., 1993
3. “Əkinçi” qəzeti (1875-1877). Tərtib edəni: Turan Həsənzadə. Bakı, 979
4. Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. Transliterasiya və tərtib edəni, müqəddimə, izahlar və qeydlərin müəllifi: Ruqiyyə Qənbər qızı. I cild. Bakı, 2005
5. Quliyev Vilayət. Türkiyəni duyğulandıran ölüm. Bakı, Qanun, 2019
6. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə. IV cild. Tərtib edəni və izahların müəllifi: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli. Bakı, 2004
7. Məmmədov Zakir. Azərbaycanşünas alimin elmi şöhrəti. //“Azərbaycan müəllimi” qəzeti, 10 noyabr 1996–cı il
8. Məmmədov Zakir (Baharlı), Zakiroğlu Orxan (Baharlı). Məhəmmədhəsən bəy Vəliyev (Baharlı) (soykökü, həyatı, yaradıcılığı). Bakı, “MBM”, 2015
9. Mirəhmədov Əziz. Azərbaycan Molla Nəsrəddini. Bakı, Yazıçı, 1980. 430 s.
10. Salamzadə Qəmər. Kiçik pəncərədən görünən dünya. Bakı, Azərnəşr, 1990

11. Vəlili Məhəmmədhəsən. Azərbaycan. Əski əlifbadan çevirənlər: Ağanəcəf Həmidov, Əbülfəz Rəhimli. Bakı, 1993

12. “Yeni Füyuzat” jurnalı (1910-1911-ci illər). Çapa hazırlayan və ön sözün müəllifi: əməkdar elm xadimi Hüseyn Həşimli. Bakı, 2010

13. Ağaoğlu Samet. Babamın Arkadaşları. İstanbul, Nebioğlu Yayınevi

14. Akçura Yusuf. Türklük. Yayına hazırlayan: Yılmaz Özkaya. //“Türk Yurdu” dergisi. Cilt 31 (63). Sayı: 285 (646). Basıldığı Tarih: 02.05.2011. s. 56-62

15. Azerbaycan. Türk Kültür Dergisi. Yıl 33, Sayı: 247. Ankara, 1984, s.13-15

16. Ülken Hilmi Ziya. Türkçülüğün ve Türk Sosyalizminin babası Ali Turan. //“Yeni İnsan”. Sayı: 84. Aralık, 1969. səh. 6-11; 21-25

17. Ülken Hilmi Ziya. Türkiyede Çağdaş Düşünce Tarihi. İstanbul, 1994

18. Yöntem Ali Canip. Ziya Gökalp’e Türkçülüğü Aşılayan Adam. //Yakın Tarihimiz. Birinci meşrutiyetten zamanımıza kadar. Cilt: 1. Sayı: 9. 26 Nisan 1962. s. 259-260

**Rəyçi: f.f.d.,dos. Zeynəddin Şabanov**